**Azərbaycan.-**2018.-1 iyun.-№ 122.-S.12.

## Prezident Kitabxanasının “Azərbaycan Xalq Cümhuriyyəti” elektron nəşri əsaslı surətdə yenilənib

Azərbaycanın zəngin dövlətçilik tarixinin mühüm mərhələsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə həm ölkədə, həm də xaricdə silsilə tədbirlər keçirilir. 2018-ci ilin “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi Cümhuriyyət tarixinin şanlı və ibrət götürüləsi səhifələrinin yenidən vərəqlənməsini, yeni-yeni əsərlərin yazılmasını və virtual məkanda yayılmasını zəruri edir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında “Virtual Azərbaycan tarixi” layihəsi çərçivəsində 2014-cü ildə Azərbaycan, rus və ingilis dillərində tərtib edilən “Azərbaycan Xalq Cümhuriyyəti” adlı elektron nəşri yubiley ərəfəsində əsaslı surətdə yenilənərək, əlavə edilmiş yeni bölmələrlə birlikdə istifadəçilərin ixtiyarına verilib. Kitabxana əməkdaşlarının müxtəlif mənbələrdən və nəşrlərdən toplayaraq ərsəyə gətirdikləri bu elektron nəşr Xalq Cümhuriyyətinin fəaliyyətinin bütün mühüm istiqamətlərini özündə əks etdirən və virtual məkanda yerləşdirən yeganə resursdur.




Prezident Kitabxanasından AZƏRTAC-a bildirilib ki, yenilənmiş elektron nəşr 8 fəsildən və 25 alt bölmədən ibarətdir.

Elektron nəşrin “Yaranması və fəaliyyəti” adlanan birinci fəslində Azərbaycan Xalq Cümhuriyyəti haqqında ümumi məlumat, Milli Şuranın, parlamentin və hökumətin tərkibi və fəaliyyəti barədə materiallar öz əksini tapıb. Cümhuriyyətin ərazisi və əhalisi haqqında məlumatlar da bu fəsildə verilib. Həmçinin Cümhuriyyət dövründə təhsil və mətbuat haqqında məlumatlar ayrı-ayrı bölmələrdə təqdim edilir. Fəslin “Diplomatik əlaqələr” bölməsində Cümhuriyyətin diplomatik əlaqələri və xarici dövlətlərin Azərbaycandakı diplomatik missiyaları haqqında məlumat yer alıb. Cümhuriyyət xadimləri haqqında bioqrafik məlumatlar da ayrıca bölmədə oxuculara təqdim edilir. Xalq Cümhuriyyətinin yaranması ərəfəsində və mövcud olduğu dövrdə baş vermiş mühüm hadisələr “Xronologiya” bölməsində əks etdirilib.

“Rəmzlər və atributlar” adlanan ikinci fəsildə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri və atributları (bayraq, gerb, himn, ordenlər və medallar, pul vahidləri, dövlət dili və ordu) haqqında zəruri məlumatlar əyani təsvirlərlə istifadəçilərə təqdim edilir.

Elektron resursun “Sənədlər” fəslində “İstiqlal bəyannaməsi”nin, parlamentin yaradılması, Cümhuriyyətin süqutu haqqında qərarların mətnləri, Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsindən sonra Xalq Cümhuriyyəti ilə bağlı verilən sərəncamların və qəbul edilən qərarların mətnləri, həmçinin dövlətimizin başçılarının müxtəlif illərdə Respublika Gününə həsr edilmiş mərasimlərdə söylədikləri nitqlərin və müraciətlərinin mətnləri yerləşdirilib.

“E-Kitablar” fəslində Prezident Kitabxanası əməkdaşlarının elektron versiyalarını hazırladıqları Azərbaycan, ingilis və rus dillərində 160-dək kitab oxucuların ixtiyarına verilir.

“E-Məqalələr” fəslində isə Xalq Cümhuriyyəti ilə bağlı 2008-ci ildən etibarən dövri mətbuatda və elmi məcmuələrdə Azərbaycan, ingilis və rus dillərində dərc edilmiş seçmə məqalələrin elektron versiyaları təqdim edilir.

Elektron nəşrin “Biblioqrafiya” fəslində kitabxananın fonduna bu mövzu ilə bağlı daxil olan kitabların və dövri mətbuatda dərc edilən məqalələrin biblioqrafik təsviri verilir.

“Xəritələr” fəslində Paris sülh konfransına təqdim edilən və Cümhuriyyət dövrünün qəzalar üzrə inzibati-ərazi bölgüsünü əks etdirən xəritələr toplanıb.

Sonuncu - “Fotoarxiv” fəsli bir sıra sənədlərin surətləri və nadir fotoşəkillər əlavə edilməklə daha da zənginləşdirilib.

Məzmun və struktur baxımından xeyli dərəcədə zənginləşən bu elektron nəşr müsəlman Şərqində ilk dünyəvi və demokratik dövlət olan, dövlətçilik tariximizə parlaq səhifələr yazan Azərbaycan Xalq Cümhuriyyətinin tarixini öyrənənlər üçün əvəzsiz internet resursudur.

http://axc.preslib.az domenində yerləşdirilən elektron nəşr mütəmadi olaraq yenilənilir.

**AZƏRTAC**